# Sərhəd mühafizəsinin gücləndirilməsi üçün yeni tədbirlər

14 may 2020-ci il

1. Ölkəyə giriş məhdudiyyəti tətbiq olunan regionların əlavə olunması (Yaponiyanın Ədliyyə Nazirliyi)
   Yaponiyanın Miqrasiya Qanunvericiliyinə əsasən aşağıda qeyd edilmiş 13 ölkə Yaponiyaya giriş məhdudiyyəti tətbiq olunmuş ölkə və regionlar siyahısına daxil edilmişdir (qeyd 1). 14 gün ərzində sözügedən ölkələrə səyahət etmiş xarici vətəndaşlara xüsusi hal olmadığı təqdirdə ölkəyə giriş məhdudiyyəti tətbiq ediləcək (qeyd 2).

   *Azərbaycan, Uruqvay, Qazaxıstan, Kabe Verde, Qabon, Qvineya-Bisau, Kolumbiya, Sao Tome və Prinsip, Ekvatorial Qvineya, Baham adaları, Honduras, Meksika, Maldiv adaları*

   (Qeyd 1) Sözügedən qərarla Yaponiyaya giriş məhdudiyyəti tətbiq olunduğu ölkə və bölgələrin sayı 100-ə çatdırılacaq.
   (Qeyd 2) 15 may 2020-ci il tarixinədək “daimi sakin”, “yapon vətəndaşın həyat yoldaşı və ya uşağı”, “ daimi sakinin həyat yoldaşı yauxd uşağı” və “ uzunmüddətli sakin” statusuna malik xarici vətəndaşlar Yaponiyaya giriş məhdudiyyəti tətbiq edilmiş 13 ölkə yaxud regionlara səyahət etdikdən sonra belə, xüsusi hal olaraq ölkəyə yenidən buraxılacaqlar. 16 may 2020-ci il tarixindən etibarən ölkəni tərk etmiş şəxslərə bu, şamil olunmayacaq. “Xüsusi daimi sakin” statusunda olanlar üçün giriş məhdudiyyəti tətbiq edilmir.

2. Karantinin gücəndirilməsi (Yaponiyanın Səhiyə Nazirliyi)
   14 gün ərzində Yaponiyaya giriş məhdudiyyəti tətbiq olunduğu regionlara səyahət etmiş şəxslər ölkəyə buraxılmazdan öncə PCR analızını verməli olacaqlar.

Sözügedən tədbirlər 16 may 2020-ci il 00:00-dan etibarən qüvvəyə minəcəklər. Tədbirlər həyata keçirilməzdən öncə xarici ölkəni tərk etmiş və qüvvəyə mindikdən sonra Yaponiyaya gələn şəxslərə də şamil olunacaq.